*UOT 159.9.*

***Reyhan Rəşid qızı Nəsirova***
*Bakı Dövlət Universitetinin*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
*https://orcid.org/0009-0005-8490-3710*
*E-mail: reyhan.nasirova.rashid@bsu.edu.az*
*https://doi.org/10.69682/arti.2025.92(6).371-375*

# PSİXOLOGİYA DƏRSLƏRİNDƏ YARADICI TƏFƏKKÜRÜN İNKİŞAFINDA KREATİV TƏLİM TEXNOLOGİYALARINDAN İSTİFADƏ

***Reyhan Rashid Nasirova***
*doctorial student in the program of doctor of philosophy*
*at Baku State University*

# THE USE OF CREATIVE TEACHING TECHNOLOGIES IN THE DEVELOPMENT OF CREATIVE THINKING IN PSYCHOLOGY CLASSES

***Рейхан Рашид гызы Насирова***
*докторант по программе доктора философии Бакинского Государственного Университета*

# ИСПОЛЬЗОВАНИЕ ТЕХНОЛОГИЙ КРЕАТИВНОГО ОБУЧЕНИЯ В РАЗВИТИИ ТВОРЧЕСКОГО МЫШЛЕНИЯ НА ЗАНЯТИЯХ ПО ПСИХОЛОГИИ

**Xülasə.** Məqalədə psixologiya fənninin tədrisi prosesində kreativliyin həyata keçirilməsi texnologiyaları elmi-pedaqoji aspektdə nəzərdən keçirilir. Müasir təhsil sistemində yaradıcı təfəkkürün inkişafı tələbələrin idraki, emosional və praktiki bacarıqlarını formalaşdırmaq üçün əsas şərt kimi dəyərləndirilir. Məqalədə beyin həmləsi, ixtira üsulu və sinektika kimi yaradıcı təlim metodlarının tətbiqi geniş şəkildə şərh olunur, həmçinin onların psixoloji biliklərin mənimsənilməsinə və tələbələrin fərdi potensialının üzə çıxarılmasına necə töhfə verdiyi göstərilir. Məqalə psixologiya dərslərində effektiv, interaktiv və tələbəyönlü tədris mühitinin qurulması üçün praktik tövsiyələr təqdim edir.
***Açar sözlər:*** *Təlim texnologiyaları, psixologiya fənninin tədrisi, yaradıcı təfəkkür, kreativlik, sinektika, ixtira üsulu, beyin həmləsi*

**Abstract.** The article examines the technologies for implementing creativity in the process of teaching psychology from a scientific and pedagogical perspective. In the modern education system, the development of creative thinking is considered a key condition for shaping students' cognitive, emotional, and practical skills. The paper provides a detailed analysis of creative teaching methods such as brainstorming, the invention method, and synectics, highlighting their contribution to the assimilation of psychological knowledge and the realization of students' individual potential. The article also offers practical recommendations for creating an effective, interactive, and student-centered learning environment in psychology classes.
***Keywords:*** *Educational technologies, teaching psychology, creative thinking, creativity, synectics, invention method, brainstorming*

**Аннотация.** В статье рассматриваются технологии реализации креативности в процессе преподавания дисциплины «Психология» с научно-педагогической точки зрения. В современной системе образования развитие творческого мышления рассматривается как основное условие формирования когнитивных, эмоциональных и практических навыков студентов. В статье подробно анализируется применение таких творческих методов обучения, как мозговой штурм, метод изобретений и синектика, а также раскрывается их вклад в усвоение психологических знаний и раскрытие личностного потенциала студентов. Статья предлагает практические рекомендации по созданию эффективной, интерактивной и ориентированной на студента учебной среды на занятиях по психологии.
***Ключевые слова:*** *технологии обучения, Преподавание дисциплины Психология, творческое мышление, креативность, синектика, метод изобретательства, мозговой штурм*

Qloballaşma və sürətli elmi-texniki inkişaf dövründə biliklərin sürətlə dəyişdiyi müasir dövrdə insanın intellektual səviyyəsini şərtləndirən əsas keyfiyyət onun düşünmək və informasiya axınında cəld hərəkət etmək qabiliyyətidir. Bu baxımdan təlim prosesində metodik innovasiyaların əhəmiyyəti ön plandadır, çünki dövlət normativ sənədlərində ölkəmizin təhsil sisteminin inkişafı üçün müəyyən edilmiş vəzifələr ilk növbədə keyfiyyətli təhsilin həyata keçirilməsinə yönəlmişdir. Müasir pedaqoji yanaşmalar göstərir ki, kreativ düşünmə bacarıqları formalaşdırılmadan şəxsiyyətin intellektual potensialının tam inkişafı mümkün deyil. Psixologiya bu kontekstdə xüsusi əhəmiyyət kəsb edir, çünki o, yalnız tələbələrin psixi və emosional prosesləri öyrətmir, eyni zamanda tələbələrdə problemə fərqli baxış, alternativ həll yolları tapmaq və öz ideyalarını sərbəst ifadə etmək bacarıqlarını da inkişaf etdirir. Kreativliyin tədris prosesinə inteqrasiyası yalnız fənnin maraqlı keçirilməsi deyil, həm də tələbələrin şəxsi təcrübə və tənqidi təfəkkür əsasında öyrənmələrinə şərait yaratmaq məqsədi daşıyır. Təlim prosesində kreativ təlim texnologiyalarının tətbiqində əsas məqsədlər aşağıdakılardan ibarətdir.

1. Tələbələrdə problemlərin psixoloji əsaslarını dərindən anlamaq bacarığını formalaşdırmaq;

2. Məlumatları innovativ üsullarla tətbiq etməyi və fərqli yanaşmalar irəli sürməyi formalaşdırmaq.

3. Fikirlərin sərbəst ifadəsinə və fərdi tədqiqat aparmağa imkan yaratmaq. [1, s.80]

Hal-hazırda insan şüurunun kompüterlər tərəfindən hələ də ələ keçirilməmiş bir sahəsi yaradıcı təfəkkürdür. Müasir psixologiyada təfəkkür dedikdə şüurda tam şəkildə təmsil olunmayan hissi prosesləri, obrazlar və praktiki yollarla, nitq və keçmiş təcrübə ilə əlaqələri olan mürəkkəb strukturlaşdırılmış psixi fəaliyyət kimi başa düşülür. Tarixən yaradıcı təfəkkürün məhsuldar bir proses kimi xüsusiyyətləri Geştalt psixoloqlar tərəfindən ətraflı şəkildə öyrənilmişdir. Geştalt psixologiyada göstərilmişdir ki, problemin kreativ həlli subyektin əvvəllər təhlil edilməmiş tanış vəziyyətdə yeni xassələri və münasibətləri müəyyən etmək bacarığı ilə müəyyən olunur. Alman psixoloqu Otto Seltz yaradıcı təfəkkür mexanizmləri probleminə fərqli aspektdən yanaşmışdır. Onun nöqteyi nəzərindən yaradıcı təfəkkürün mahiyyəti artıq məlum əməliyyatları birləşdirən yeni üsuldur. Eyni zamanda o, təfəkkürdə həm məhsuldar, həm də reproduktiv məqamların mövcudluğunu vurğulamışdır. [2, s.432]

Yaradıcı təfəkkür psixologiyasının digər istiqaməti kreativliyin öyrənilməsidir. Kreativlik XX əsrin 50-60-cı illərində meydana çıxan psixoloji və pedaqoji anlayışdır. Bu anlayış Amerika psixoloqlarının tədqiqatlarında yeni ideyaların qurulması ilə əlaqəli olan insan qabiliyyəti kimi nəzərdən keçirilmişdir. Xarici ədəbiyyatlarda kreativlik dörd əsas istiqamətə uyğun olaraq öyrənilir.

Birinci istiqamət məhsul haqqında yaradıcı təfəkkürü öyrənir. Burada kreativlik meyarları məhsulun kəmiyyəti, keyfiyyəti və əhəmiyyətidir.

İkinci istiqamətin nümayəndələri kreativliyi birinci növbədə şəxsiyyətin strukturu və ya onun xüsusiyyətlərindən biri hesab edirlər. Onlara görə məhsuldarlığın mənşəyi subyektin həyat mövqeyindədir. Bu istiqamət daha çox şəxsi xüsusiyyətlərin nəzərə alınmasına yönəldilmişdir. Onun nümayəndələri K. Rocers, N. Rogers, A. Maslou və başqaları kreativlik prosesini ilk növbədə şəxsiyyətin özünü aktuallaşdırması ilə əlaqələndirirdilər.

Üçüncü istiqamətin nümayəndələri yaradıcı təfəkkürü psixi proses kimi öyrənirlər. Bu istiqamətə uyğun olaraq yaradıcı təfəkkürün müxtəlif növləri, mərhələləri və səviyyələri fərqləndirilir. Onun tədqiqi dörd mərhələdən ibarət bir sxemə uyğun olaraq həyata keçirilir: hazırlıq, yetkinlik, ilham və həqiqətin yoxlanılması.

Dördüncü istiqamətin nümayəndələri kreativliyi anadangəlmə qabiliyyət hesab edirlər. E. From kreativliyi təəccübləndirmək, öyrənmək, qeyri-adi situasiyalarda həll yolu tapmaq və öz təcrübəsini dərindən dərk etmək bacarığı kimi dəyərləndirmişdir. [3, s.241] Yaradıcı təfəkkür, mövcud biliklər sistemindən kənara çıxan, prinsipial olaraq yeni bir şey yaradan məhsuldar düşüncə kimi qəbul edilir. Müasir dövrdə təlim prosesi zamanı tələbələrin kreativliyinin və yaradıcı təfəkkürünün inkişafına xüsusi diqqət yetirilir. Mühazirə və praktik məşğələlərdə kreativliyin inkişafı aşağıdakı problemləri həll etməyə kömək edir.

1. Tələbələrə müxtəlif istiqamətlərdə düşünməyi öyrətmək.

2. Qeyri-standart vəziyyətlərdə həll yolları tapmağı öyrətmək.

3. Zehni fəaliyyətin orijinallığını inkişaf etdirmək.

4. Tələbələrə mövcud problem vəziyyətini müxtəlif aspektlərdən təhlil etməyi öyrətmək

5. Sürətlə dəyişən dünyada gələcək səmərəli həyat və uyğunlaşma üçün lazım olan düşünmə bacarıqlarını inkişaf etdirmək.

Yaradıcı təfəkkürün inkişafı üçün ali məktəblərdə təlim məşğələləri keçirərkən aşağıdakı prinsiplərə əməl etmək lazımdır.

1. Koqnitiv məkanın müxtəlif obyektlər və stimullarla zənginləşdirmək.

2. Tələbələrə aktiv sual vermək imkanının, ümumilikdə idrak fəaliyyətinin təmin etmək.

3. Tələbələrə öz fikirlərini ifadə etməyə kömək etmək.

4. Müzakirə iştirakçılarının ideyalarına hörmət etmək.

5. Sağlam psixoloji mühit yaratmaq.

6. Tələbələrin yaradıcı ideyalarını bəyənməyən qiymətləndirmədən çəkinmək.

7. Şəxsi nümunədən istifadə etmək və problemlərin həllinə kreativ yanaşmaq.

8. Həll yollarını müstəqil axtarmaq bacarığı formalaşdırmaq. [4, s. 54-60]

Tələbələrin yaradıcı təfəkkürünün inkişafında əsas vəzifə onların intellektual fəaliyyətinin inkişafıdır. Həmçinin diqqəti tələbələrin artıq malik olduqları inkişaf səviyyəsinə deyil, proksimal inkişaf zonasına yönəltmək lazımdır. Təlim prosesində maksimum şəkildə tələbələrin düşüncələrini oyatmaq, fəal, müstəqil və yaradıcı təfəkkürü ən yüksək səviyyədə inkişaf etdirmək lazımdır.

Tələbə mərkəzli təlimdə təlim metodlarının seçilməsində əsas amil məhsuldar fəaliyyətin təşkili vəzifəsidir. Koqnitiv və kreativ təlim metodları tələbələr tərəfindən nəticə üçün subyektiv, yeni olan təhsil məhsulunun yaradılmasına yönəldilmişdir. Eyni zamanda öyrənmə tələbələrin kreativ fəaliyyəti zamanı baş verir. Kreativ üsullara beyin həmləsi metodu, ixtira üsulu, obrazlı şəkil metodu, hiperbolizasiya metodu, morfoloji qutu metodu, sinektika və inversiya metodu kimi üsullar daxildir.

Təlim prosesində hər hansı bir fəaliyyətin başlanğıcı ənənəvi olaraq bir motivdir. Motivasiya komponenti ilk növbədə diqqəti özünü inkişafa, özünü təhsilə və özünü ifadə etməyə yönəldir. Kreativliyin inkişafına şəxsiyyətin fərdi xüsusiyyətləri, emosional və motivasiya amilləri böyük təsir göstərir. Qeyd olunan bu halları nəzərə alaraq müəllimlər, inkişaf məqsədi ilə təlim prosesində kreativ düşünən ali məktəb tələbələri psixoloji maneələri aradan qaldırmağa və ünsiyyət bacarıqlarını inkişaf etdirməyə kömək edən müxtəlif təlim metodlarından istifadə edirlər. Psixologiya fənnin tədrisinə kreativ yanaşma texnologiyaları, tələbələrin fəal iştirakı, yaradıcılıq bacarıqlarının inkişafı, həmçinin dərsin maraqlı və funksional şəkildə qurulmasını təmin edir. Bu texnologiyalar psixoloji biliklərin daha dərindən mənimsənilməsinə, analitik və tənqidi düşüncənin formalaşmasına kömək edir. Bu texnologiyalar aşağıdakılardan ibarətdir.

Ali məktəblərdə psixologiya fənninin tədrisi zamanı “beyin həmləsi” və ya “əqli hücum” metoduna böyük əhəmiyyət verilir. A.F. Osborne tərəfindən istifadə olunan bu üsul innovativ metod hesab olunur. Bu metodun əsas məqsədi nəzərdən keçirilən problemlə bağlı mümkün qədər çox məlumat toplamaqdır. Beyin həmləsi hazırlıq mərhələsi ilə başlayır, məşq xarakterli suallara cəld cavab axtarır, daha sonra qoyulan sual bir daha aydınlaşdırılır, müzakirə qaydaları xatırladılır və hücuma start verilir. Hər kəs öz fikrini ifadə edə, tamamlaya, aydınlaşdıra bilər. Qruplara ekspert təyin olunur, onların vəzifəsi ən yaxşı ideyaları seçmək üçün irəli sürülmüş fikirləri kağız üzərində qeyd etməkdir. "Hücum" 10-15 dəqiqə çəkir. Sonda ekspert qrupun işinin nəticələri haqqında hesabatla çıxış edir, ən yaxşı ideyaları qiymətləndirir və onları açıq şəkildə müdafiə etməyi təklif edir. Qruplarda iş aşağıdakı plana uyğun aparılmalıdır:

-ideyaların yaradılması;

- problemli vəziyyətin təhlili;

- ideyaların qiymətləndirilməsi;

- əks ideyaların yaradılması.

İdeyanın formalaşma mərhələsində istənilən tənqid qadağandır. Qeydlər, zarafatlar və rahat iş mühiti hər cür şəkildə təmin edilir. Sonra alınan ideyalar ümumi yanaşma və prinsiplər əsasında sistemləşdirilir, birləşdirilir və seçilmiş ideyaların həyata keçirilməsinə müxtəlif maneələr nəzərdən keçirilir. Müzakirə zamanı səslənən tənqidi fikirlər qiymətləndirilir. Yalnız tənqid və əks fikirlər tərəfindən rədd edilməmiş ideyalar seçilir. Bu metod əsasında ayrıca dərslər qurmaq

olar. Gördüyümüz kimi, "Beyin həmləsi" metodunun proseduru özü, bir tərəfdən, tələbələrin tədris fəaliyyətinin təşkili və həyata keçirilməsini nəzərdə tutur, digər tərəfdən, qrup və fərdi ənənəvi təlim formalarından praktik istifadə situasiyalarını təmsil edir, üçüncü tərəfdən, hər bir tələbəyə öz nöqteyi-nəzərini arqumentlərlə müdafiə etməyi və başqalarının ifadələrini tənqidi təhlil etməyə kömək edir. [5, s.97]

Müasir təhsil sisteminin əsas məqsədlərindən biri ali məktəblərdə yalnız nəzəri biliklərin öyrədilməsi deyil, tələbələrin yaradıcı potensialının inkişaf etdirilməsidir. Xüsusilə psixologiya kimi sosial və humanitar bir fənnin tədrisində tələbələrə problemə çoxşaxəli yanaşma, alternativ düşüncə və innovativ həll yolları tapmaq bacarığının aşılanması mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan ixtira üsulu, yəni yaradıcı problem həll etməyə əsaslanan təlim metodları, təlim prosesinə yeni nəfəs gətirir. İxtira üsulu tələbələrin mövcud bilik və bacarıqları əsasında fərqli və innovativ yanaşmalar tapmasını stimullaşdıran təlim texnologiyasıdır. Bu üsulun elmi əsasını sovet mühəndisi və psixoloqu Genrix Altşullerin inkişaf etdirdiyi TRIZ (Təlimdə ixtira problemlərinin həlli teoriyası) təşkil edir.

İxtira üsulu tələbələrin müəyyən zehni hərəkətləri nəticəsində əvvəllər onlara məlum olmayan məhsulun yaradılması üsuludur. Bu üsul aşağıdakı üsullardan istifadə etməklə həyata keçirilir:

- yeni obyekt yaratmaq üçün bir obyektin keyfiyyətlərini digərinin keyfiyyətləri ilə əvəz etmək;
- başqa mühitdə obyektin xüsusiyyətlərini tapmaq, öyrənilən obyektin elementini dəyişdirmək;
- yeni, dəyişdirilmiş obyektin xüsusiyyətlərini təsvir etmək. [6, s.17]

Bu üsullar yaradıcı tapşırıqların istifadəsi kimi tədris üsulları vasitəsilə həyata keçirilir. Müəllim dərs zamanı adi psixoloji konsepsiyaları deyil, onunla bağlı real həyat problemini təqdim edir və tələbələrdən bu problemi fərqli yollarla həll etməyi istəyir. Bu zaman tələbələr yalnız nəzəri bilikləri tətbiq etməklə kifayətlənmirlər. Onlardan həmin bilikləri yeni şəraitə uyğunlaşdırmaq, transformasiya etmək və alternativ həll yolları tapmaq tələb olunur. Psixologiya fənninin tədrisi prosesində kreativliyin inkişafı üçün sinektika üsulundan istifadə tələbələrin yaradıcı təfəkkürünü inkişaf etdirmək və psixoloji bilikləri daha dərindən mənimsəmək üçün olduqca effektivdir. Sinektika, problemə yaradıcı və metaforik yanaşma ilə yeni ideyaların ortaya çıxmasını stimullaşdıran təlim metodudur. "Sinektika" sözü yunanca "synectikos" birləşdirici, əlaqələndirici deməkdir. Bu üsul 1950-ci illərdə amerikalı elm adamı J.J. Gordon tərəfindən yaradılmışdır. Sinektika üsulunun əsas məqsədi tələbələri onların vərdiş etdikləri düşüncə tərzindən ayıraraq analoji və metaforik təfəkkür vasitəsilə problemi daha yaradıcı və kreativ yollarla həll etməyə sövq etməkdir.

Sinektika metodu beyin həmləsi metoduna, müxtəlif növ analogiyalara, inversiyaya və assosiasiyalara əsaslanır. Əvvəlcə problemin ümumi xüsusiyyətləri müzakirə edilir, ilk həll yolları irəli sürülür və aradan qaldırılır, analogiyalar yaradılır və inkişaf etdirilir. Problemi başa düşmək üçün analogiyalardan istifadə edilir, alternativlər seçilir, yeni analogiyalar axtarılır və problemə qaytarılır. Psixologiya fənninin tədrisi zamanı tələbələrin yaradıcı və assosiativ düşüncəsini inkişaf etdirmək üçün sinektika üsulu imkan verir ki, tələbələr:

- psixoloji problemləri metaforalarla izah etsinlər;
- psixoloji hadisələri və anlayışları qeyri-ənənəvi kontekstdə dərk etsinlər;
- müxtəlif fenomenlər arasında gözlənilməz əlaqələr qursunlar;
- empatik və simvolik təfəkkürlərini gücləndirsinlər.

Psixologiya fənninin tədrisində sinektika üsulunun tətbiqi tələblərə uyğun yaradıcı mühitin formalaşdırılmasında mühüm yer tutur. Sinektika üsulu sayəsində tələbələr abstrakt və mürəkkəb psixoloji anlayışları daha dərindən və mənalı şəkildə qavramağa başlayır. Metaforik təfəkkür və analoji yanaşmaların tətbiqi, tələbələrə həm fərdi təcrübələrini dərsə inteqrasiya etmək, həm də psixoloji mövzulara daha empatik və simvolik baxış bucağından yanaşmaq imkanı verir. Bu isə onların emosional zəkasının və təhliletmə bacarığının inkişafına birbaşa təsir göstərir.

Tədris prosesində sinektikanın istifadəsi:

- Tələbələrdə yaradıcı və assosiativ düşünmə vərdişlərini inkişaf etdirir;
- Psixoloji problemlərə fərqli və effektiv həll yolları təklif etməyə sövq edir;

- Motivasiya və marağı artırır, dərsin monotonluğunu aradan qaldırır;
- Tədrisi tələbəyönlü və şəxsi təcrübəyə əsaslanan hala gətirir;
- Mücərrəd anlayışların praktik dərkini və tətbiqini asanlaşdırır.

Bundan əlavə, sinektika üsulu psixologiyanın müxtəlif sahələrində təhsil psixologiyası, klinik psixologiya, sosial psixologiya və s. müasir tələblərə uyğun yaradıcı pedaqoji modellərin qurulmasına şərait yaradır. Sinektika üsulunun psixologiya dərslərinə inteqrasiyası tələbələrin həm elmi-idraki, həm də yaradıcı-emotiv bacarıqlarını inkişaf etdirən kompleks və effektiv bir təlim texnologiyası kimi qiymətləndirilə bilər. Belə yanaşmalar, XXI əsrin tələblərinə cavab verən kreativ, çevik düşüncəli və psixoloji baxımdan həssas mütəxəssislərin hazırlanmasına mühüm töhfə verir. [7, s.5-14]

Aparılan araşdırmalar göstərir ki, psixologiya fənninin tədrisi prosesində kreativliyin tətbiqi müasir təhsil sisteminin qarşıya qoyduğu əsas tələblərdən biridir. Kreativ təlim texnologiyaları beyin həmləsi, ixtira üsulu, sinektika və digər metodlar tələbələrin koqnitiv, emosional və təcrübi bacarıqlarının inkişafına xidmət edir, onların yaradıcı potensialını üzə çıxarır, dərs prosesini daha interaktiv və tələbəyönlü edir. Beləliklə, kreativ təlim texnologiyaları psixologiya dərslərində yaradıcı və analitik təfəkkürün inkişafı üçün mühüm metodoloji baza rolunu oynayır. Onların tətbiqi ali məktəblərdə müasir tələbələrə cavab verən, çevik düşüncəli və yaradıcı mütəxəssislərin hazırlanmasına mühüm töhfə verir.

**Problemin aktuallığı.** Müasir təhsil sistemi sürətlə inkişaf edən və dəyişən cəmiyyətin tələblərinə cavab vermək üçün tələbələrin kreativ və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirməyi əsas məqsəd kimi qarşıya qoyur. Bu baxımdan ali məktəblərdə psixologiya fənninin tədrisi yalnız nəzəri biliklərin ötürülməsi ilə kifayətlənməməli, həmçinin tələbələrin fərdi potensialının, yaradıcı təfəkkürünün və praktik bacarıqlarının formalaşmasına da xidmət etməlidir. Psixologiya dərslərində kreativliyin həyata keçirilməsinə yönəlmiş təlim texnologiyalarının tətbiqi aktuallıq kəsb edir.

**Problemin elmi yeniliyi.** Problemin elmi yeniliyi ondan ibarətdir ki, psixologiya dərslərində yaradıcı mühitin təşkili üçün müəllim, tələbə münasibətlərinin strukturuna, təlim motivasiyasına və interaktiv fəaliyyətə yönəlmiş praktik təkliflər irəli sürülür.

**Problemin praktik əhəmiyyəti.** Tədqiq olunan problemin nəzəri əhəmiyyəti ondan ibarətdir ki, psixologiya fənninin tədrisi prosesində kreativliyin həyata keçirilməsi məsələsi elmi-pedaqoji yanaşmalar baxımından sistemləşdirilir və müasir təhsil nəzəriyyələri ilə uzlaşdırılır. Problemin praktik əhəmiyyəti isə ondan ibarətdir ki, məqalədə təqdim olunan metodoloji yanaşmalar və konkret təlim texnologiyaları ali məktəblərdə psixologiya dərslərinin təşkili və həyata keçirilməsində müəllimlər üçün tətbiq edilə biləcək real və effektiv vasitələr təqdim edir.

## Ədəbiyyat


1. Davies D., Jindal-Snape D., Collier C., Digby R., Hay P., Howe A. Creative learning environments in education – A systematic literature review // Thinking Skills and Creativity. – 2013. – №8. – P. 80–91.
2. Подласый, И. П. Педагогика / И. П. Подласый, – М.: Просвещение – ВЛАДОС, –1999. – 432 с.
3. Подласый, П. И. Педагогика / И. П. Подласый, – М., 1998. – С. 241.
4. Трушкина Н. В. Развитие творческого мышления студентов в образовательной среде вуза // Педагогика и психология образования. – 2021. – №3. – С. 54–60.
5. Оспанова, Б. А. Технология формирования креативности будущего специалиста в условиях университетского образования. – Туркестан, 2006. -97 s.
6. Altshuller G. Creativity as an Exact Science: The Theory of the Solution of Inventive Problems. – New York: Gordon and Breach, 1984. – P. 17.
7. Gordon W. J. J. Synectics: The Development of Creative Capacity. – New York: Harper & Row, 1961. – P. 5–14.


**Redaksiyaya daxil olub:** 08.10.2025